# Elmi-metodiki seminar

Yazan Manager
24.11.17 13:29 - axırıncı dəyişikliklər 24.11.17 13:36




2017-ci ilin noyabr ayının 24-də ADPU-nun Şəki filialının Humanitar fənlər kafedrasının növbəti elmi-metodiki seminarı keçirilib  2017-ci ilin noyabr ayının 24-də ADPU-nun Şəki filialının Humanitar fənlər kafedrasının növbəti elmi-metodiki seminarı keçirilib. Seminarda seminar üzvləri ilə yanaşı, filialın tədris işləri üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Gülarə Abdullayeva, filialın Ümumelmi fənlər kafedrasının müdiri, dosent əvəzi Sədrəddin Bədiyev, filialın elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, baş müəllim Kamil Adışırinov və tələbələr iştirak ediblər.

Elmi-metodiki seminarda filialın Humanitar fənlər kafedrasının baş müəllimi Həbubulla Manaflının "M.Ə.Rəsulzadənin ədəbi-tənqid sahəsindəki fəaliyyəti" mövzusunda məruzəsi dinlənilib. Həbubulla Manaflı təqdim etdiyi məruzəsində M.Ə.Rəsulzadənin əsərləri, ədəbi-tənqidi görüşləri barədə geniş məlumat verib, onun XX əsrin əvvəlində dövri mətbuatda nəşr edilən ədəbi-tənqid xarakterli məqalələri, onlarda toxunulan məqamlar barədə ətraflı söhbət açıb, onların müqayisəli təhlilini verib.

Daha sonra məruzə ətrafında geniş müzakirə və fikir mübadiləsi keçirilib. Müzakirələrdə çıxış edən filialın tədris işləri üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Gülarə Abdullayeva bu gün elmi-metodiki seminarın müzakirəsinə çıxarılan problemin ədəbiyyat tariximizin olduqca aktual və demək olar ki, az öyrənilmiş sahələrindən birinə həsr edildiyini qeyd edərək, təqdim edilən məruzənin yüksək peşəkarlıqla hazırlandığını, aparılmış geniş və çoxşaxəli tədqiqatın məhsulu olduğunu bildirib, onun məziyyətlərindən söhbət açıb.

Çıxış edən filialın Ümumelmi fənlər kafedrasının müdiri, dossent əvəzi Sədrəddin Bədiyev də təqdim edilən məruzənin bu kimi tədqiqat işləri üçün müəyyənləşdirilmiş tələb və meyarlara tam cavab verdiyini qeyd edərək, Həbubulla Manaflıya gələcək elmi fəaliyyətində uğurlar arzulayıb. Daha sonra filialın elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, baş müəllim Kamil Adışırinov, hümanitar fənlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, baş müəllim Vüsal Baxışov, kafedranın baş müəllimi Vaqif Aslan, müəllim İbrahim Abdulsəlimli çıxış edərək, məruzədə toxunulan bir sıra məqamlara dair fikirlərini bildirib, məruzəçiyə onları düşündürən suallarla müraciət ediblər.

Sonda ADPU-nun Şəki filialının Humanitar fənlər kafedrasının baş müəllimi, Həbubulla Manaflı “M.Ə.Rəsulzadənin ədəbi-tənqid sahəsindəki fəaliyyəti” mövzusunda məruzəsinin müəyyənləşdirilmiş tələb və meyarlara tam cavab verdiyini nəzərə alınaraq, onun qəbul edilməsi haqqında qərar qəbul edilib.

Qeyd edək ki, filialın Humanitar fənlər kafedrasının növbəti elmi-metodiki seminarının 2017-ci ilin dekabr ayının 22-də keçirilməsi planlaşdırılıb. Həmin seminarda tar.ü.f.d., b.m. Vüsal Baxışovun “Türk xalqları tarixinin tədrisinin aktual problemləri”, fil.ü.f.d. dos. Flora Namazovanın “İ.Əfəndiyev və dramaturgiya” mövzusunda məruzələri dinləniləcəkdir.
[Açıq dərsin qısa video çarxını buradan izləyə bilərsiniz]






ADPUShekifiliali